# “Bu qəbirdəkilər əzab çəkirlər, əzabları isə böyük günahlarına görə deyil. Qəbirdəkilərdən birinə sidikdən qorunmadığına görə, digərinə isə insanlar arasında söz gəzdirdiyinə görə əzab verilir

İbn Abbasdan (Allah ondan və atsından razı olsun) belə dediyi rəvayət edilir: Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) iki qəbrin yanından keçərkən belə dedi: "“Bu qəbirdəkilər əzab çəkirlər, əzabları isə böyük günahlarına görə deyil. Qəbirdəkilərdən birinə sidikdən qorunmadığına görə, digərinə isə insanlar arasında söz gəzdirdiyinə görə əzab verilir” Sonra yaş bir xurma budağı götürüb, iki yarıya böldü və hər qəbirə birini basdırdı. Soruşdular ki: “Ey Allahın Rəsulu, niyə belə etdin? Buyurdu ki: “Ümid edirəm ki, bu budaqlar yaş qaldıqca onların da əzabı yüngülləşər”.

[Səhih] [Müttəfəqun aleyhi(əl-Buxari və Musliminsəhih gördüyü hədislər)]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) iki qəbrin yanından keçərkən belə dedi: Bu iki qəbrin sahibinə əzab verilir; bu əzab onlar üçün sizin nəzərinizə görə böyük bir məsələdə olmasa da , Allah qatında o böyükdür. Onlardan biri, ehtiyacını ödəyərkən bədənini və paltarını sidikdən qorumağa önəm verməzdi. Digəri isə insanlar arasında söz gəzirməklə məşğul idi, zərər vermək və insanlar arasında ixtilaf və çəkişmə salmaq məqsədiylə başqasının sözünü nəql edirdi.



النجاة الخيرية
ALNAJAT CHARITY
لجنة الدعوة الإلكترونية
EDC E-Da'wah Committee